# Müxtəlif dinlərdə oruc

**Uca Allah Quran ayəsində oruc tutmaqla bağlı belə buyurur: *“Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, siz pis əməllərdən çəkinəsiniz!” (“Bəqərə” surəsi, 183-cü ayə).***

**İSLAMDA ORUC**

İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və ən müqəddəs ay hesab edilir. Onu məcazi məna-



da “on bir ayın sultanı” da adlandırırlar. Oruclu hicrinin ikinci ilində Məhəmməd peyğəmbər tərəfindən Mədinədə bu məqsəd üçün Ramazan ayı təyin olunandan öz tarixini başlayır. Məhz Ramazan ayının axırıncı on gecələrinin birində Quran nazil edilmişdir. Deyilənə görə bu, həmin ayın ya 22-dən 23-nə, ya da 26-dan 27-nə keçən gecə baş vermişdir. Bu gecə **“leylət al-Qadr”** – qüdrətli, əzəmətli gecə adlanır. Quranda bu gecə haqda belə yazılır: **“Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır!” (Qədr surəsi, 3-5-ci ayələr)**

**YƏHUDİLİKDƏ ORUC**

Yəhudilik Hz.Musa tərəfindən əmr edilən “Kəffarə” orucunu əsas qəbul edir. Yəhudilər, xüsusilə də Yom Kippurdan əvvəl oruc tuturlar. “Kəffarə” adlandırılan oruc məcburidir.

Yəhudilikdə oruc üfüqün çıxmasından ilk ulduzun görünməsinə kimi davam edir. Kəffarə günü orucu ilə avqust ayının 9-na düşən oruclar bir axşamdan sabahkı axşama kimi davam edir. Yəhudilərin müqəddəs kitablarında oruc nəfslərin alçaldılması, ona əzab verilməsi kimi ifadə edir (“Levililər”, XVI/29-31; XXIV/26-28; “Sayılar”, XXIX/7).

Avqust ayının ilk doqquz günü ilə iyul ayının 17-si və avqustun 10-u arasındakı bəzi günlər ancaq ət yemək və içki içmək qadağan olunur.



**XRİSTİANLIQDA ORUC**

Xristianlıqda oruc müxtəlif dəyişikliklərə məruz qalıb. Hz.İsanın dövründə və xristianlığın ilk dövrlərində oruc çox təqdir edilən bir ibadət idi.

Yuxarıda “Bəqərə” surəsində qeyd edilən ayədə İslamdan əvvəlki ümmətlərə də orucun fərz edildiyi bildirilir. Ancaq bu orucun mahiyyəti və şərtləri haqqında dəqiq məlumata malik deyilik. Hz.İsanın orucla bağlı hökmlər qoymadığını, özündən sonra bəzi əsaslar bildirdiyi və bu məsələdə kilsəyə sərbəstlik verdiyi qeyd edilir.

Xristianlıqda orucun müxtəlif ölkələrə görə dəyişən hökmləri və ənənələri var. Bəziləri yumurta və meyvə yeməkdən kənarlaşır, bəziləri ancaq quru çörək yeyir, bəziləri də bunların heç birini yemir. Bəziləri də ancaq göyərti yeyərək oruc tuturlar.



**HİNDUİZMDƏ ORUC**

Hinduizmdə nəfsin təmiziliyi üçün ilin müəyyən günlərində və bayramlarda oruc tutulur. Hinduizmin mənsublarının dua və ibadətlə keçirdikləri xüsusi günləri var. Bu günlərdə əksər insanlar yemək yeməz, bütün gecə müqəddəs kitabını oxuyaraq və tanrını düşünərək vaxtlarını keçirərlər. Onlarda oruc çox qida qəbul etməmək tərzindədir. Bu, bir növ pəhrizdir və bu bütün hindust qruplarda geniş yayılıb.

Bəzi günlərdə ancaq qadınlar oruc tutur və “Tanrının qadınlıq sifətlərinin təcəllahı” olan tanrıçaya dua edirlər. Bu günlərə xüsusi əhəmiyyət verdikləri üçün “Əhd” adlandırırlar. Bu günlər nəfslərini təmizləməyə ayrılmış günlərdir. Məqsədləri də mənəvi bir qida ilə ruhu qidalandırmaqdır.

Quran bu ümmətlərin hansı ümmətlər olduğunu dəqiq şəkildə qeyd etməmişdir. Hal-hazırda yəhudi və xristianların əllərində olan Tövrat və İncilə nəzər salsaq, burada bu iki dinə mənsub olan insanlara orucun vacib edilmiş olduğu görünmür. Sadəcə bu iki kitabda bəzi ifadələr vardır ki, orucu tərifləyir və onu əzəmətli sayır. Hazırda yəhudi və xristianlar ildə bir neçə gün müxtəlif formalarda oruc tuturlar: ya ət yeməkdən, ya süd içməkdən, ya da mütləq şəkildə yeyib-içməkdən özlərini çəkindirirlər.

Qurani-Kərimdə Zəkəriyyənin, Məryəmin oruc tutmasından söz açılır. Qurandan sair yerlərdə dinsiz qövmlərin də oruc tutması qeyd olunmuşdur. Belə ki, qədim misirlilər, yunanlar, rumlular, hətta bütpərəst hindlilər belə, özünəməxsus oruc tutmuşlar. Beləliklə düşünmək olar ki, Adəm övladının fitrəti oruc tutmağa hökm vermişdir.



Çünki digər canlılardan fərqli olaraq, insanlar öz duyğularına məhdudiyyət qoymur, yaxşılıq və pisliklərin sərhədi bilinmir. Bu dünya insanlar üçün imtahan dünyasıdır. Hislərin mənəvi tərəqqi və ya tənəzzül etməsi üçün iradə azadlığı verilmişdir. Mahiyyət etibarilə insan mələklərdən üstün məqama yüksələ də bilər, heyvanlardan aşağı səviyyəyə də yuvarlana bilər.

Bu mənada İslami əsaslar iradəyə məhdudiyyət qoyaraq qabiliyyətlərin müsbət istiqamətdə inkişaf etdirilməsini məqsəd seçmişdir. Nəfsin və pis niyyətlərin bu şəkildə müəyyən çərçivəyə salınması labüddür.

***“Allah Mələklərə təkcə ağıl verib, şəhvət hissi verməyib. Heyvanlarda isə şəhvət var, ağıl yoxdu. Lakin insana həm ağıl, həm də şəhvət hissi verilib. İnsan öz şəhvətini ağlına tabe etsə, mələklərdən yüksəyə qalxar. Yox əgər ağlını öz istəklərinə tabe etsə, heyvanlardan da alçaq səviyyəyə enər“.***

***Hz.ƏLİ***

**Hazırladı: L.Nəbiyeva**